İranın rəsmi saytı Bütöv Azərbaycan xəritəsi yaydı

Yazan Esmira Məmmədova
03.05.17 17:07 -



İranda hökumətyönlü Gənc Jurnalistlər Klubu Xəbər Agentliyi yaydığı xəbərdə Vahid Azərbaycan xəritəsindən istifadə edib.

Dalga tv Axar.az -a istinadən xəbər verir ki, agentlik bu fotodan Azərbaycan Respublikası ilə Avropa Birliyi arasında viza rejiminin ləğvinə dair danışıqlar haqda yaydığı məlumatda yararlanıb. Xəritədə Güney və Quzey Azərbaycanın üçrəngli bayraq altında birləşdiyi əks olunub.

Trend agentliyinə istinadən yayımlanan xəbər (Xəritə Trend agentliyinə aid deyil - red.) 2016-cı il dekabrın 2-nə aid olub. Maraqlı məqam odur ki, xəritə uzun müddət saytda qalıb və yalnız İranın müstəqil saytlarında bu haqda məlumat dərc olunduqdan sonra bu gün portaldan silinib.

Yazan Esmira Məmmədova
03.05.17 17:07 -